TAXIL BİÇİNİ BAŞA ÇATMAQ ÜZRƏDİR: YEKUNLAR VƏ UĞURLAR

Respublikamızın üçüncü minilliyə hesablanmış inkişafının əsasını ulu öndər Heydər Əliyevin müəyyən etdiyi müstəqil siyasət və uğurla həyata keçirdiyi çoxsahəli islahatlar təşkil edir. Bu islahatlarda xüsusi prioritet təşkil edən, analoqu olmayan aqrar islahatlar ölkəmizdə kənd təsərrüfatının dinamik inkişafına möhkəm zəmin yaratmışdır. Bu gün ölkəmizdə qeyri-neft sektorunun, xüsusi ilə aqrar sahənin inkişafı dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Dövlət başçısı cənab İlham Əliyevin həyata keçirdiyi ardıcıl, sistemli, məqsədyönlü siyasət və daim genişləndirilən aqrar islahatlar nəticəsində kənd təsərrüfatının dinamik inkişafı üçün yaradılmış münbit şərait aqrar sektorda əsaslı dəyişikliklərin baş verməsinə, yeni iqtisadi və mülkiyyət münasibətlərinin formalaşmasına, normativ-hüquqi bazanın təkmilləşdirilməsinə imkan vermişdir. İdarəetmədə səmərəliliyin, hesabatlılığın və şəffaflığın artırılması məqsədi ilə elektron kənd təsərrüfatı sisteminin yaradılması kənd təsərrüfatı məhsulları istehsalçılarının tələblərini daha çevik, vahid pəncərə prinsipi ilə etibarlı yerinə yetirməyə imkan verir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2015-ci il 12 yanvar tarixli 988 nömrəli Sərəncamı ilə 2015-ci ilin Azərbaycan Respublikasında "Kənd təsərrüfatı ili" elan edilməsi və 2015-ci il 3 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planı respublikanın aqrar sahəsində çalışan istehsalçılara göstərilən böyük diqqət və qayğının təzahürü kimi qiymətləndirilir. Dövlət başçısının aqrar sahənin inkişafına yönəlmiş mühüm qərarları Kənd Təsərrüfatı Nazirliyi sistemində çalışan hər bir insan qarşısında həlli vacib olan böyük vəzifələr qoyur. Bu vəzifələr kənd təsərrüfatı məhsulu istehsalçılarını və xidmət strukturlarını daha da səfərbər olmağa ruhlandırır, tapşırıqların layiqincə yerinə yetirilməsinə ciddi məsuliyyət yaratmışdır.

Ölkəmizdə kənd təsərrüfatının inkişafına dövlət dəstəyinin gücləndirilməsi, yeni çağrışlara uyğun sahə üzrə prioritet istiqamətlərin və strateji hədəflərin müəyyən edilməsi və institusional dəyişikliklərin aparılması sahənin keyfiyyətcə yeni mərhələyə keçməsinin təməlini qoymuşdur. Regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarının uğurla icra edilməsi bölgələrin inkişafında, o cümlədən kənd təsərrüfatının sürətli inkişafına təkan vermişdir.

Kənd təsərrüfatının dinamik inkişafını təmin edən məsələlərdən biri dövlətin fermerlər üçün müəyyən etdiyi bir sıra mühüm güzəştlərin tətbiq edilməsidir. Belə ki, kənd təsərrüfatı məhsulları istehsalçıları, torpaq vergisi istisna olmaqla, vergilərdən azad edilmişlər. Fermer və sahibkarlar güzəştli şərtlərlə kredit, toxum, "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən lizinqə verilən və lizinq yolu ilə satılan gübrə, texnika, damazlıq mal-qara almaq imkanlarına malikdirlər. Eyni zamanda, əkin sahəsinin becərilməsində istifadə olunan yanacaq üçün dövlət subsidiyalar verir.

Möhtərəm Prezident İlham Əliyevin sərəncamları ilə ayrılan vəsaitlər hesabına fermerlərin kənd təsərrüfatı texnikaları ilə təchizatının yaxşılaşdırılması istiqamətində də ciddi dönüş yaradılmışdır. Belə ki, son iki ildə "Aqrolizinq" ASC tərəfindən müasir tələblərə cavab verən 5551 kənd təsərrüfatı texnikası, o cümlədən 562 taxılyığan kombayn, 1755 traktor, 3234 digər kənd təsərrüfatı texnikası alınaraq istifadəyə verilmişdir.

Respublika Nazirlər Kabinetinin 2014-cü il 23 avqust tarixli 273 nömrəli qərarı ilə kənd təsərrüfatı məhsulları istehsalçılarına, fermerlərə lizinqə verilən texnikaya 40% güzəştin tətbiq edilməsi fermerlər tərəfindən alınan texnikanın növ tərkibini dəyişməklə, daha müasir, yüksək dəyərə və texniki-texnoloji parametrlərə malik texnikaya üstünlük verməsinə imkan yaratmışdır. Xüsusi ilə qeyd edilməlidir ki, kənd təsərrüfatı məhsulu istehsalçılarına analoqu olmayan belə güzəşt mexanizmlərinin tətbiqi kənd təsərrüfatı müəssisələrində texnika parkının böyük templə yenilənməsinə zəmin yaratmışdır. Bütün bunların nəticəsidir ki, dövlət başçısının birbaşa dəstəyi nəticəsində əsalı şəkildə yenilənmiş kənd təsərrüfat texnikası parkı hesabına 2015-ci il taxıl biçini mövsümündə indiyədək ölkə üzrə taxıl sahələrinin 98,3 faizindən çoxu biçilmiş, ən minimal dən itkisi ilə və qısa müddətdə başa çatdırılacaqdır.

Kənd təsərrüfatı nazirinin "Aqrolizinq" ASC-nin strukturunun təkmilləşdirilməsi haqqında 2014-cü il 25 avqust tarixli 74 nömrəli və cəmiyyətin mərkəzi aparatının və regional nümayəndəliklərin fəaliyyətinin Kənd Təsərrüfatı Nazirliyi sistemində həyata keçirilən genişmiqyaslı institusional islahatlara uyğunlaşdırılmasını təmin edilməsi haqqında 2015-ci il 17 mart tarixli 18-1 nömrəli əmrləri ilə cəmiyyətin strukturu təkmilləşdirilmiş və daha səmərəli fəaliyyət göstərməsi üçün işgüzar şərait yaradılmışdır.

Ümumiyyətlə, cari mövsümdə kənd təsərrüfatı məhsulları istehsalçılarına göstərilən agrotexniki xidmətlərin səviyyəsini yüksəltmək məqsədilə yığım texnikasının texniki hazırlığının yüksəldilməsi, bütün rayonlarda operativ qərərgahların və Kənd Təsərrüfatı Nazirliyində 24 saat fəaliyyət göstərən Çağrı Mərkəzinin yaradılması, taxılyığan kombaynların dislokasiyasının tələbətə uyğun təsdiq edilməsi və icrasına nəzarətin gücləndirilməsi, taxılın yetişmə vaxtına görə kombaynlardan rayonlararası yerdəyişmə ilə operativ şəkildə istifadənin təşkil edilməsi, yığım mövsümünün daha müteşəkkil keçməsinə zəmin yaratmışdır.

Qeyd etmək lazımdır ki, cari mövsümdə iqlim şəraiti taxıl məhsullarının yetişdirilməsi və yığımı baxımından ən əlverişli illərdən biri olmuşdur. Belə ki, taxılın vegetasiya dövründə havaların yağıntılı keçməsi nəticəsində xüsusilə dəmyə ərazilərdəki taxıl sahələrində məhsuldarlıq ötən illərlə müqayisədə yüksək olmuşdur. Digər tərəfdən dövlət başçısının kənd təsərrüfatı məhsulları istehsalçılarına göstərdiyi sonsuz diqqət və qayğısının təzahürü kimi, gübrənin və yanacağın güzəştli şərtlərlə fermerlərə verilməsi, kənd təsərrüfatı nazirinin bu məsələlərə çox ciddi yanaşması və prosesin şəffaf şəkildə təşkilinə ciddi nəzarəti nəticəsində inkişaf dövründə kifayət qədər mineral gübrələrdən istifadə edilməsi bol məhsulun yetişdirilməsində əsas olmuşdur.

Bunlar onu deməyə əsas verir ki, ölkənin taxıla olan ehtiyacının yerli istehsal hesabına ödənilməsi üçün bütün ehtiyatlar yaradılmışdır. Bizim vəzifəmiz isə yalnız bu ehtiyatlardan səmərəli istifadə etmək, agrotexniki norma və tələblərə ciddi əməl etməklə yetişdirilmiş məhsulu son dəninədək yığıb təhvil verməkdir.

Respublikanın Kənd Təsərrüfatı Nazirliyi elektron kənd təsərrüfatının yaradılması ilə əlaqədar mühüm tədbirlər həyata keçirir. Bütün strukturlarda olduğu kimi, "Aqrolizinq" ASC-də də elektron idarəetmə sistemi yaradılmışdır. Cəmiyyətin regional nümayəndəliklərinin həmin sistemə qoşulması prosesi başlanmışdır və davam etdirilir. Regional nümayəndəliklər sistem vasitəsi ilə Cəmiyyətin mərkəzi aparatı ilə elektron sənəd mübadiləsi aparır, mal-materialın hərəkəti haqqında məlumatları sistemə daxil edir. Sistemin tətbiqi informasiyanın çevikliyini, keyfiyyətini, xidmətdən istifadənin asanlığını təmin edir. Hər bir kənd təsərrüfatı məhsulu istehsalçısının asanlıqla sistemdən istifadə edə bilməsinə imkan yaradır. Xüsusi qeyd edilməlidir ki, elektron sistemin tətbiqi vaxta qənaət etməklə, şəffaflığı təmin edir, yarana biləcək neqativ halların qarşısını tam almağa imkan verir. Məhz belə bir işlək sistemin yaradılması qarşıya qoyulan vəzifələrin uğurlu icrasında nümunə ola bilər.

Məlum olduğu kimi, taxıl böyük ümumxalq əhəmiyyətinə malik olub, ərzaq məhsulları arasında insanların enerji ehtiyaclarını və sosial tələblərini ödəmək baxımından ən başlıca mənbədir. Buna görə də ərzaqlıq taxıl məsələsi, onun çatışmazlığı problemi ölkə, lokal çərçivəsindən çıxaraq qloballığa çevrilmişdir. Respublikamızın təbii-coğrafi şəraiti aqrar sahəsinin, xüsusilə taxılçılıq kompleksinin formalaşmasında çox böyük potensial imkanlara malikdir. Son illərdə ölkədə apanılan aqrar siyasət nəticəsində əhalinin taxıla və taxıl məhsullarına artan tələbatının yerli istehsal hesabına təmin olunmasına imkan verir.

Respublikada taxıl istehsalını, torpaqdan və əkin sahələrindən səmərəli istifadəni, yetişdirilmiş məhsulun itkisiz yığılmasını, ümumiyyətlə taxılçılığın inkişafını xarakterizə edən əsas göstərici taxıl sahəsinin hektardan məhsuldarlığıdır. 2015-ci il biçin mövsümü başa çatmasa da yığılmış taxıl sahələri üzrə hektardan məhsuldarlığının nəticələrin təhlili göstərir ki, respublika taxılın məhsuldarlığı ötən illərə nisbətən əhəmiyyətli dərəcədə yüksəkdir. Bu isə dövlət başçısı cənab İlham Əliyevin kənd təsərrüfatına göstərdiyi daimi diqqət qayğının, Kənd Təsərrüfatı Nazirliyinin bütün məsələlərə peşəkarcasına yanaşmaqla, prioritetləri düzgün müəyyən etməsi, tapşırıqların icrasına nəzarəti gücləndirməsi, hər bir əməkdaşda məsuliyyət hissinin artırılması nəticəsində mümkün olmuşdur.

2015-ci il taxıl biçini mövsümünün yekunlaşmasına sayılı günlər qalır. Respublikamızın taxıl zəmilərinde yetişdirilmiş məhsul əsasən biçilmiş və tədarük edilmişdir. Dövlət Statistika Komitəsinin 27.07.2015-ci il tarixli məlumatına əsasən respublikamızda 915 min 212 ha sahə, yəni cəmi taxıl sahələrinin 98,3%-i biçilmiş və 2 mln. 747 min 224 ton taxıl istehsal edilmişdir. Respublikada taxılın məhsuldarlığının 1913-2015-ci illərdə dayişmə diaqramı maraqlı, eyni zamanda nadir bir fakt təsdiq edir: Respublikanın son 100 illik tarixində ilk dəfə taxıl sahələrindən orta məhsuldarlıq hektardan 30,5 sentner həddinə yüksəlmişdir. Buğda üzrə məhsuldarlıq isə hektardan 31,3 sentner olmuşdur.

Bu isə 2014-cü illin müvafiq dövrü ilə müqayisədə (22,8 s/ha) məhsuldarlığın hər hektardan 33,8% yüksək olduğunu göstərir.

Cənab Prezidentimiz İlham Əliyevin kənd təsərrüfatının ölkəmiz üçün əhəmiyyətini yüksək dəyərləndirməsini xatırlayıram: "Kənd təsərrüfatı Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi üçün əsas sahələrdən biridir və məşğulluğun təmin edilməsi üçün demək olar ki, əsas sahədir. ... Biz hamımız yaxşı bilirik ki, imkan var ki, hətta indiki əkin sahələrini də nəzərə almaqla, məhsuldarlığı artırmaqla ərzaq təhlükəsizliyini tam şəkildə təmin edə bilək".

Faktlar bir daha dövlət başçısının kənd təsərrüfatının inkişafı üçün prioritet saydığı məhsuldarlığın artırılması haqqında tapşırığının böyük əmək, zəhmət və fədakarlıq sayəsində əldə olunduğunu göstərir. Kənd Təsərrüfatı Nazirliyinin bütün strukturları, fermerlər, kənd təsərrüfatı məhsulları istehsalçıları, dövlət başçısının göstərdiyi diqqət və qayğıya cavab olaraq taxılçılıqda bu il rekord məhsuldarlıq əldə etmişlər.

Təhlil göstərir ki, illik taxıl istehsalının 36,78%-i Aran iqtisadi rayonunun, 13,37%-i Şəki-Zaqatala, 11,4%-i Dağlıq Şirvan, 8,9%-i Yuxarı Qarabağ, 8,55%-i Gəncə-Qazax, 8,3%-i Lənkəran və Quba-Xaçmaz iqtisadi rayonun payına düşür.

Kənd təsərrüfatını texnikasız təsəvvür etmək mümkün deyil. Odur ki, aqrar sahənin inkişafı texnika ilə təminat səviyyəsindən əhəmiyyətli dərəcədə asılıdır. 1990-2005-ci illərdə traktorların və taxılyığan kombaynların sayında kəskin azalma müşahidə edilir. Bu, 90-cı illərdək ölkəmizə gətirilmiş traktorların köhnəlməsi, yaşının çox, istismar müddətinin xidmət ömründən çox olması ilə əlaqədir. 2006-cı ildən sonra isə dinamikada artım müşahidə edilir və sonrakı illərdə stabillik yaradıldığı və saxlanıldığı görünür. Müsbət dinamikanın əsasında Dövlət başçısının Sərəncamı ilə "Aqrolizinq" ASC-nin yaradılması və respublikaya yeni texnikanın gətirilməsi durur.

Texnikanın sayı və texniki göstəriciləri, xüsusi ilə məhsuldarlığı onun xidmət müddətinin artması ilə aşağı düşür. Təsərrüfatlarda mövcud olan və yeni daxil olan yüksək məhsuldarlığa və daha üstün texnoloji parametrlərə malik texnikadan səmərəli istifadə yollarının axtarılması bu günün prioritet məsələsidir. Xidmət ömrünü başa vurmuş texnikanın istifadədən çıxarılması və texnika parkının respublikanın təbii şəraitinə uyğun, yenilənməsi yolu ilə kənd təsərrüfatının etibarlı texniki təminatını tələb edilən səviyyədə yerinə yetirmək mümkündür. Bu mühüm məsələ Respublikanın Kənd Təsərrüfatı Nazirliyinin diqqət mərkəzində durur.

Dövlət başçısının müvafiq Sərəncamı ilə "Aqrolizinq" ASC-nin yaradılmasından sonra respublikaya 2005-2015-ci illərdə 22943 ədəd kənd təsərrüfatı texnikası, o cümlədən 6892 ədəd traktor, 1869 ədəd kombayn, 208 ədəd ekskavator, 13974 ədəd müxtəlif kənd təsərrüfatı maşın və avadanlıqları gətirilmişdir. Təkcə 2014-2015-ci illərdə ölkəmizə gətirilmiş və kənd təsərrüfatı məhsulları istehsalçılarına verilmiş taxılyığan kombaynlar və kənd təsərrüfatı maşınlarının əksəriyyəti Avropa ölkələrində istehsal edilmişdir.

Alınmış texnika lizinqə götürən vətəndaşlara mütəmadi olaraq kənd təsərrüfatı naziri cənab Heydər Əsədov tərəfindən müteşəkkil qaydada, tantənəli şəkildə bütün sənədləri, dövlət nömrə nişanı, sığorta şahədətnaməsi və s. olmaqla şəxsən təqdim edilir.

Gətirilmiş xarici texnikanın hesabına respublikanın kənd təsərrüfatında kombayn parkı 61%, traktor parkı 27%, toxumsəpənlər 72%, yığıb-presləyənlər 34%, malalar 31%, kotan və gübrəsəpənlər 100% yenilənmişdir. Hazırda respublikamıza gətirilən texnikanın tərkibində Avropada, o cümlədən Almaniya, Fransa, İtaliya, Finlandiya, Belçika, Rusiya Federasiyası, Belarus və başqa ölkələrdə istehsal edilmiş traktor və taxılyığan kombaynların xüsusi çəkisi yüksəkdir.

"Aqrolizinq" ASC-nin fəaliyyəti, işinin təkmilləşdirilməsi, respublikamıza gətirilən texnikadan səmərəli istifadə edilməsi daim Kənd Təsərrüfatı Nazirliyinin diqqət mərkəzində saxlanılır. Məhz bu baxımdan nazirliyin 2015-ci il 20 may tarixli 36 nömrəli əmri ilə "Aqrolizinq ASC tərəfindən lizinqə verilən və lizinq yolu ilə satılan, yeni alınan texnikanın istifadəyə yararlığını müəyyən etmək və onlardan daha səmərəli istifadəyə nəzarəti həyata keçirmək məqsədi ilə daimi fəaliyyət göstərən Komissiyanın yaradılması xüsusi əhəmiyyət daşıyır. Sözü gedən komissiyanın üzvü kimi qeyd etməliyəm ki, komissiyanın fəaliyyət müddətində müqavilə əsasında ölkəyə gətirilən kənd təsərrüfatı texnikasının standartlara və müqavilənin şərtlərinə uyğunluğunun araşdırılması satıcı şirkətlər tərəfindən müqavilə şərtlərini ciddi yerinə yetirilməsinə mühüm təsiri olmuşdur. Respublikada traktor istehsalı kimi mühüm sahədə əhəmiyyətli payı olan Gəncə Avtomobil Zavodunun istehsal etdiyi texnikanın standartlara uyğunluğunu və həmin texnikadan səmərəli istifadə edilməsini araşdırmaq məqsədi ilə mütəxəssisləri cəlb etməklə monitorinqlərin keçirilməsi qeyd edilən məsələlərin həllinə əhəmiyyətli dərəcədə kömək edəcəkdir.

Respublikamız üçün son dərəcə əhəmiyyətli sayılan müasir kənd təsərrüfatı texnikasını idarə etməyi bacaran, yüksək peşə hazırlığına malik mexanizator kadrlarının hazırlanması məsələsinin də nazirliyin müvafiq əmrində öz əksini tapması, gənc mexanizatorlara elektron idarəetmə sistemli kombayn və traktorlarla işləmək bilgilərini etibarlı aşılayan təlim kurslarının təşkili prioritet məsələ kimi qarşıya qoyulmuşdur.

Qeyd edilməlidir ki, yeni məhsuldar sortların, intensiv texnologiyaların tətbiqi ilə yanaşı, taxıl məhsullarına olan tələbatın ödənilməsi, başqa sözlə bitkiçiliyin davamlı inkişafı tədrici olaraq daha müasir, məhsuldar texnikanın tətbiqi, xüsusilə taxıl yığımı dövründə yeni texnikadan ibarət yığım maşınları kompleksinin səmərəliliyinə nail olunması böyük əhəmiyyət daşıyır.

Kənd təsərrüfatında taxılçılığın texniki təminatını qiymətləndirmək məqsədi ilə hər 1000 ha sahəyə düşən taxılyığan kombaynların sayı göstəricisini nəzərdən keçirmək maraqlıdır. Rusiyada 1000 ha-a 2,9 taxılyığan kombayn. Kanadada və Ukraynada-9, İtaliyada 17, Avropa İttifaqı üzrə orta-18, Almaniya və Fransada-20, ABŞ-da 21 kombayn düşür. Respublikamızda 2013-cü ilin məlumatlarına göra 1000 ha taxıl sahəsinə 2 taxılyığan kombayn və 14 traktor düşür.

Göründüyü kimi, 1000 ha-a düşən taxılyığan kombaynların sayı RF-də və Azərbaycanda qeyd edilən ölkələrə müqayisədə azdır. Bu o deməkdir ki, ölkəmizdə taxılyığan kombaynların illik yükü müqayisə edilən ölkələrə nisbətən yüksəkdir.

Hazırda ölkədəmizdə 2015-ci il biçin mövsümünün artıq son günləridir. Kənd əməkçiləri böyük zəhmətin, dövlətimizin yaratdığı imkanların və güzəştli təminatları hesabına sahələrdə yetişdirdikləri bol taxıl məhsulu artıq toplanmışdır. Təbiət də bizim xeyrimizə işləyir. Belə bir kəlam var ki, biz təbiətdən mərhəmət gözləyə bilmərik, ancaq təbiətdən öz məqsədimiz üçün bacarıqla istifadə etməliyik. Yetişdirilmiş bol məhsulu vaxtında və itkisiz yığmaq və tədarük etmək üçün bütün imkanlar, ehtiyatlar səfərbər edilmişdir. Ümumiyyətlə, taxılçılığın texniki təminatında əsas yeri kombaynlar tutur. Bu ilki mövsüm üçün kombaynlar kifayət qədərdir. Texniki hazırlığı yüksək səviyyədədir, kombayn parkının 60%-dən çoxu ən yeni, Avropada istehsal edilmiş müasir kombaynlardır. Respublika üzrə taxıl əkinlərinə görə kombaynlara olan tələbat üzrə kombaynlar dislokasiya edilmişdir.

Taxıl biçini mövsümündə kombaynla təminat səviyyəsi və onlardan səmərəli istifadə məsələlərini nəzərdən keçirmək maraqlı olar.

Bu il respublikanın kənd təsərrüfatında 2217 ədəd kombayn saz vəziyyətdə biçinə cəlb edilmişdir. Bu kombaynların içərisində lizinq yolu ilə fermerlərə verilən 40% güzəştlə satılan kombaynların xüsusi çəkisi böyükdür. Rayonlarımızın hər birində onlarla belə kombayn vardır ki, bunlar taxılın vaxtında və itkisiz yığılmasında yaxından iştirak edirlər. Kombayn parkının hazırlıq əmsalı 0,95 təşkil edir, təcrübədə bu yüksək göstəricidir. Biçin mövsümü başlamazdan əvvəl Kənd Təsərrüfatı Nazirliyinin əmri ilə kombaynların biçinə hazırlıq vəziyyəti araşdırılmış və "Aqrolizinq" ASC-nin regional nümayəndəliklərində olan 673 taxılyığan kombayn üçün mexanizatorlarla müqavilə bağlanmışdır. Bu kombaynların 72%-i 2014-cü və 2015-ci ildə istehsal edilmiş müasir NEW HOLLAND TC-5050, CLAAS Dominator-130, SAMPO ROSENLEV SR-2045 kombaynlarıdır. Təcrübə göstərir ki, Avropa ölkələrində istehsal edilmiş bu kombaynlar geniş texniki imkanlara, yüksək məhsuldarlığa və ən az dən itkisinə malik olduğu üçün həm mexanizatorlar, həm də istehsalçılar onlara daha çox üstünlük verirlər.

Biçin mövsümündə Kənd Təsərrüfatı Nazirliyi tərəfindən yaradılan "Çağrı Mərkəzinin" (tel:1652) və "Aqrolizinq" ASC-də "Qaynar xətt" xidmətinin fəaliyyət göstərməsi yaranan çətinliklərin qarşısını vaxtında almağa, fermerlərin istək və arzularını reallaşdırmağa imkan vermişdir. Bunun nəticəsidir ki, mövsüm ərzində kombaynçılar tərəfindən, digər aidiyyəti şəxslər tərəfindən mövsümdə neqativ hallara yol verilməmişdir. Vətəndaşlardan kombayn çatışmazlığı ilə əlaqəli, biçinlə bağlı daxil olan müraciətlər dərhal xidmətə götürülmüş və qısa vaxt ərzində operativ şəkildə araşdırılaraq icrası təmin edilmişdir. Kənd Təsərrüfatı Nazirliyinin tapşırığına əsasən biçin mövsümündə yaranan mübahisələri, vətəndaşların "Qaynar xətt" mərkəzinə etdikləri müraciətləri operativ araşdırmaq üçün "Aqrolizinq" ASC-də fəaliyyət göstərən qərərgahın üzvləri, əməkdaşlarımız demək olar ki, respublikanın bütün rayonlarında biçinin gedişi ilə yaxından tanış olub, əhalinin problemlərinin həllinə yerindəcə köməklər etmişlər. Fermerlərə, vətəndaşlarımızla görüşlər göstərir ki, kənd təsərrüfatı məhsulları istehsalçıları yaradılmış şəraitdən, texnika ilə təminat məsələlərindən, taxıl yığımının gedişindən, onlara göstərilən xidmətin səviyyəsindən əsasən razılıq edirlər. Təbii ki, müraciətlərin içərisində əsaslı, həlli vacib olan müraciətlərlə yanaşı şəxsi maraqdan irəli gələn müraciətlər də olmuşdur. Buna baxmayaraq bütün müraciətlər diqqətlə araşdırılır və vətəndaşın xeyrinə həll edilir.

İqtisadi rayonlar üzrə kombaynlara olan tələbat normativləri ilə faktiki dislokasiyaya görə bir kombayna düşən taxıl sahəsinin müqayisəsi göstərir ki, Quba-Xaçmaz İR-da olan kombaynlar daha çox yüklənmişdir. Burada bir kombaynın mövsümlük yükü, yaxud iş həcmi 551,3 ha təşkil etmişdir. Gələcəkdə normativ üzrə tələb edilən kombayn sayı təmin edilərsə bir kombayna düşən sahə 338,6 ha qədər azala bilər. Dağlıq Şirvan İR-da - 526,5 ha təşkil edir, Yuxarı Qarabağ İR-da 522,3 ha təşkil edir. Mövsüm ərzində kombaynların ən az yüklənməsi region — Abşeron İR-dur - 80,3 ha. Bu, Gəncə-Qazax, Şəki-Zaqatala və Naxçıvan İR-i üçün də xarakterikdir, kombayn artıqlığı səbəbindən kombaynların normadan az yüklənməsi müşahidə edilir. Respublika üzrə bir kombaynın mövsümlük yükü 390,8 ha təşkil edir, normativə görə isə 345,3 ha olmalıdır. Ümumilikdə kombaynların illik iş həcminin normativ göstəricidən yüksək olması biçin mövsümünün gərgin keçməsini göstərir.

Mövsümdə müteşəkkilliyin təmin edilməsi, texnikadan istifadənin səmərəsinin yüksək olması və yetişdirilmiş məhsulun vaxtında və itkisiz yığıb tədarük edilməsində Kənd Təsərrüfatı Nazirliyi tərəfindən təsdiq edilmiş respublika üzrə proqnozlaşdırılmış biçin xəritəsinə və taxılın yetişmə müddətlərinə görə kombaynların respublikanın rayonları üzrə dislokasiya planına nəzarət edilməsi əhəmiyyətli rol oynamışdır. Mövsüm ərzində biçin prosesi, taxılın yığılması, o cümlədən texnikanın dislokasiyası, istifadəsi tam şəkildə nazirliyin rəhbərliyi tərəfindən ciddi idarə edilmişdir.

Kənd təsərrüfatının, o cümlədən taxıl istehsalının mövsümi xarakter daşıması təsərrüfatların texniki təminatı, texnikadan mövsümdə səmərəli istifadə edilməsi məsələlərinə yeni yanaşma tələb edir. Məlumdur ki, taxılın istehsal texnologiyasında ən məhsuldar və vacib əməliyyat taxılın yığılmasıdır. Taxıl bitkilərinin strukturu və mütənasibliyi eyni zamanda yetişən bitkilərin payını artırır.

Yığımın texnika ilə təminatına təsir edən amillərdən biri də ölkənin bölgələrində taxılın eyni zamanda yetişmə həddinin təxminən 65-80% təşkil etməsidir. Taxıl biçini mövsümünə iyun ayının əvvəlində Aran zonasından Neftçala rayonu, Xəzərkənd kəndi ərazisində arpa biçini ilə start verilmişdir. İyun ayının ikinci yarısı respublikada taxıl yığımının ən məhsuldar dövrü olmuşdur.

Biçin mövsümünün ardınca sahələrin payız əkinlərinə hazırlanması kimi məsul dövr gəlir. Burada sahələr qəbul edilmiş texnologiya əsasında səpinə hazırlanır. Səpinqabağı hazırlıq işlərinin əsasını payız şumlaması təşkil edir. Regional nümayəndəliklərin istifadəsində olan şum əqreqatları, traktorlar, kotanlar sazlanaraq yüksək texniki hazırlıq vəziyyətinə gətirilmişdir.

Beləliklə, müxtəlif təsərrüfatlarda texnikadan istifadənin təhlili və kənd təsərrüfatı məhsulu istehsalının səmərəsinin yüksəldilməsi istiqamətində axtarışlar göstərir ki, xirda fermer təsərrüfatlarının torpaq və digər mülkiyyətləri üzərində hüququnu saxlamaqla könüllü olaraq birləşərək fermer kooperasiyalarını və iri fermer təsərrüfatlarını yaratmaları zəruridir. Bu günün prioritet məsələsi məhz fermerlər ittifaqlarının, birliklərinin yaradılmasıdır ki, bu məsələnin uğurla həll edilməsi məhsul istehsalçılarının məsələyə tolerant yanaşması və könüllü olaraq bu prosesə qoşulmasından asılıdır. Bu isə geniş, sistemli, ardıcıl maariflendirmə işlərinin təşkil edilməsindən və apanılmasından asılıdır.

Biçin mövsümünün yuxarıda qeyd edilən çətinlikləri, taxılın respublikanın rayonları üzrə 65-80%-nin eyni vaxtda yetişməsi, kombayn parkının tərkibində kombaynların 39%-nin uzun müddət istifadədə olduğu, etibarlıq göstəricilərinin aşağı düşməsi, xarabolama ehtimallarının böyük olması nəzərə alınarsa respublikamız üçün kombayn ehtiyatının yaradılması zərurəti artır. Digər tərəfdən, biçin mövsümünün taxılın yetişmə vaxtına görə təşkili təcrübəsi taxıl yığımında kombaynları taxılın yetişməsinə görə yerdəyişmə ilə istifadəsinin təşkili daha məqsədə uyğundur.

Fərqli torpaq-iqlim şəraiti üçün, yəni respublikanın müxtəlif bölgələri üçün texnika növləri üzrə 1000 ha əkin sahəsinə normativlər müəyyən edilmişdir. Belə ki, 1000 ha əkin sahəsinə 2,41 taxılyığan kombayn normativi müəyyən edilmişdir. Bu halda bir kombayna düşən əkin sahəsi 415 ha müəyyən edilir ki, bu, müasir kombaynların mövsümlük iş həcmi ilə eynidir. Metodun üstünlüyü bir də ondadır ki, istifadəsi asandır, çox vaxt, texniki vasitə və maliyyə vəsaiti tələb etmədiyindən əlverişlidir. Texnikanın istismar mədəniyyəti və maşından istifadənin səmərəsi yüksəlir, il ərzində texnikanın nominal yüklənməsinə imkan yaranır və bununla da texnikanın xidmət ömrü artır. Təklif edilən metodun praktiki cəhətdən proqram təminatının (Microsoft Excel proqramında) əlverişli olması, kompüterdə kənd reallaşdınla bilməsi, müxtəlif kənd təsərrüfatı məhsulu istehsalçıları tərəfindən MTP-nin optimal tərkibinin təyin edilməsinə geniş istifadə olunmasına imkan verir.

Sonda bir daha qeyd edilməlidir ki, kənd təsərrüfatı əhəmiyyətli sahə kimi respublika əhalisinin yarısından çoxunu əhatə edir. Dövlətimizin daim diqqətində saxlanması, o cümlədən strateji məhsul olan taxılın istehsalı və tədarükü üçün prinsipial güzəştlərin tətbiqi məhsul istehsalçılarını stimullaşdıran, bol məhsul yetişdirməyə zamin yaradan əsas sosial amil kimi dəyərləndirilir.

İsrafil İSMAYILOV,
"Aqrolizinq" ASC agrotexniki xidmətlərin və təchizatın təşkili şöbəsinin müdiri, texnika elmləri doktoru, professor.